# GÖY QURŞAĞI

№ 1 (58) - 2017

uşaq jurnalı

Hər çiçəyin öz ətri səh.4

Dovşan Edvardın qeyri-adi səyahəti səh.16

Дональд Биссет: Аннабель səh.22

Axan qumlar, yoxsa təbiət tələsi səh.24

Pirate Gran Goes for Gold səh.31



Bayramova Selin



Nesibova Aylin



Danilenko Yelizaveta



Neda Amcadi



Zəhra Məmmədova



Rzayeva Nabatxanim



Əlizadə Sitarə



Həsənəliyeva Gülər



Nadirzadə Surxay



Rzazadə Fidan



Şıxova Cəmilə



Muxtarzadə Lamiyə

*Hər çiçəyin öz ətri...*

*Uşaq və yeniyetmələrin rəsm əsərləri*

Redaktordan

# Salam, dost!



Səhla Qəmbərova
baş redaktor
Əməkdar mədəniyyət işçisi

Nəhayət, əziz uşaqlar, 2017-ci ildə “Göy qurşağı” jurnalının ilk sayı ilə görüşünüzə gəldik. Hər zamankı kimi – şeirləmizi, nağıllarımızı, hekayələrimizi, ümumilikdə mütaliəni təbliğ etmək arzusu ilə!

“Göy qurşağı” jurnalı dərsdənkənar vaxtınızı səmərəli və mənalı keçirmək üçün nəzərdə tutulub. Bu jurnalın daimi sakini olan “İncəhörüm” sizin hər birinizi yaxından dost olmağa çağırır. İncəhörüm mütaliə edən hər bir uşağı sevir və yaxın dostlar haqqında maraqlı məlumatlar verir. “Göy qurşağı” jurnalının səhifələrində bizi narahat edən, düşündürən suallara cavab tapa bilirik. Sizinlə nələrdən danışmadıq ötən 2016-cı ildə?! Dovşan Edvardın qeyri-adi sərgüzəştlərindən (Keyt di Kamillo), torpaqda bitən gəlincik Mirabeldən (Astrid Lindqrin)... Qar dənəciklərinin yaranmasından tutmuş siçan yuvasında Yeni il bayramınadək (Alf Preysen), şirniyyatatan silahlardan (Aygün Bünyadzadə) tutmuş çəhrayı göllərədək... Qalay əsgərcik (H.K. Andersen) haqqında da oxuduq, bir yurdun keşiyində dayanan mətin gil ordu haqqında da... Bir sözlə, ən müxtəlif kitablar, ən qeyri-adi kitabxanalar, ən əfsanəvi parklar, ən möcüzəli planetlər, ən nadir heyvanlar, ən sehrli mağaralar, ən qabaqcıl məktəblər, qolfstrim və Coşua ağacı, karliklər səltənəti, məntiqi suallar və idman oyunları, daha nələr, nələr...

Yağış yağır... Yaz yağışı... Pəncərəm naxış-naxışdır... Mən də yağış damcılarının həzin nəğməsini dinləyə-dinləyə “Göy qurşağı” jurnalının 2017-ci il saylarının daha nələrdən danışacağı barədə düşünürəm. Danışmalı o qədər maraqlı əhvalatlar var ki. Təki oxumaq həvəsimiz olsun...

Növbəti aylarda görüşmək ümidilə!

Hələlik!



# Hər çiçəyin öz ətri



**Dostum! Sənə rənglərin dili ilə danışanlardan söhbət açmaq istəyirəm. Gözəl rəsmlərini sərgiləyənlərdən. Rənglərdən möcüzə yaradanlardan...**

2016-cı il dekabrın 23-də Xətai Sənət Mərkəzində F.Köçərli adına Respublika Uşaq Kitabxanasının təşkilatçılığı ilə Multikulturalizm İlinə həsr olunmuş "Hər çiçəyin öz ətri..." adlı uşaq və yeniyetmələrin Azərbaycanda yaşayan azsaylı xalqların nağılları əsasında çəkilmiş rəsm sərgisi keçirildi. Kitabxananın direktoru Şəhla Qəmbərova sərgi iştirakçılarını salamladı, qeyd etdi ki, tədbiri keçirməkdə əsas məqsəd oxucular arasında azsaylı xalqların nağıllarını tanıtmaq və oxuduqdan sonra düşündüklərini rənglərin dili ilə ifadə etməyi bacaran istedadlı uşaq və yeniyetmələri üzə çıxarmaqdır. Tədbirdə sərgilənən rəsmlərin kataloqunun da təqdimatı keçirildi. Kataloqa 85 uşaq və yeniyetmənin 127 rəsm əsəri və azsaylı xalqların nağılları daxil edilmişdi.

Mədəniyyət və Turizm Nazirliyinin kitabxana sektorunun müdiri Lətifə Məmmədova, Rəssamlar İttifaqının katibi, professor, Xalq rəssamı Ağaəli İbrahimov, Xalq rəssamı Arif Hüseynov sərgi iştirakçılarına uğurlar arzuladılar. Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Elmira Süleymanovanın adından uşaqların mədəni hüquqlarının təbliği, gənc nəslin yaradıcılıq potensialının, bilik və bacarığının inkişafı sahəsində uzun illər səmərəli əməkdaşlığına görə kitabxananın direktoruna Ombudsmanın Fəxri Fərmanı və xatirə medalı təqdim edildi. Yeniyetmə rəssamlar Əzim Kazımov və Cavid Qurbanlı sərgidə iştiraklarına görə öz minnətdarlıqlarını bildirdilər. Nizami rayon Uşaq və Gənclər Yaradıcılıq Mərkəzinin kiçik yaşlı uşaqlarının ifasında azsaylı xalqların milli geyimləri nümayiş olundu.

*İncəhörüm*















*Gənc nəslin hərtərəfli inkişaf etməsi, sosial və estetik cəhətdən kamilləşməsi üçün uşaq ədəbiyyatının təbliği və mütaliəsi zəruridir. Bu səbəbdən uşaq ədəbiyyatının oxucular arasında təbliği məqsədi ilə mütəmadi tədbirlər keçirmək, azyaşlı oxucuların mütaliə həvəsini artırmaq, kitabxanaların fondlarının uşaq ədəbiyyatı ilə intensiv şəkildə komplektləşdirmək məqsədi ilə Azərbaycan Respublikası Mədəniyyət və Turizm naziri cənab Əbulfəs Qarayev 01.02.2016-cı il tarixli 22 saylı əmr imzalamışdır. Müvafiq əmrə əsasən tədbirlər planı hazırlanıb. Tədbirlər planının həyata keçirilməsi ilə bağlı bir çox layihələrə də start verilib. Onlardan biri də Azərbaycan Uşaq Ədəbiyyatının "Bərpa-Nəşr" layihəsidir. Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi və F.Köçərli adına Respublika Uşaq Kitabxanasının köməyi ilə kitabxanamızın Qızıl Fondunda qorunan 1920-1960-cı illəri əhatə edən bir çox nağıl, hekayə və povestlər "Bərpa-Nəşr" layihəsinə əsasən ilk nəşrin kitab göstəriciləri olduğu kimi saxlanılmaqla təkrar çap olunmuşdur. Artıq bu günə 17 kitab işıq üzü görüb. İlk addım uğurla başa çatdığı üçün bütün azyaşlı oxucularımızı təbrik edirik və layihədə əməyi olan hər kəsə təşəkkür edirik. Jurnalımızın bu sayında sizə iki əsəri təqdim edirik.*







*Bahar fəsli idi. Çöllər, çəmənlər yaşıl don geymişdi. Qış yuxusundan ayılmış bitkilər aləmi min rəngə çalırdı. Lalə elə qızarmışdı ki, elə bil bağrına dağ çəkmişdilər.*

*Nərgiz gülü bağa girən kimi ətrafına baxıb özünü itirmişdi. Bənövşə aciz-aciz boynunu əyib durmuşdu. Qönçələrin açıldığını görən şeyda bülbül sevinir, qızılgülün açıldığına baxıb ah-naləyə başlayırdı. Çəmənlərdə yasəmənlərin xoş rəngi, ətri, gözəlliyi qəlbə fərəh verirdi.*

*Təbiətin belə gözəl çağında bir alim bağı gəzməyə gəldi. Bu alim bitkilərin dilini bilirdi. O, bağa girən kimi meyvələrin fəxr edib öyündüklərini gördü. Alça deyirdi:*

*—Dünyada mənim kimi gözəl meyvə hanı?*

*Qızdırma xəstəliyinə tutulanların şəfası, ağzı acı olanların davası mənəm. Bütün həkimlərin dediyi kimi, mən baş ağrısının da dərmanıyam.*

*Alça sözünü deyib qurtaran kimi gavalı hirslənib özündən çıxdı və Alçaya dedi:*

*— Ey aciz meyvə, utanmırsan ki, belə öyünürsən? Turşluqdan dişləri qamaşdırırsan, səni yeyən adam ya əzgin olar, ya da iflic. Meyvələr içində səndən əlili yoxdur. Mənim isə adımı Gavalı qoyublar. Yüz min tərəfə saçılan budaqlarım, dürr kimi saf, gah yaşıl, gah qırmızı, gah ağ-qırmızı, gah da zəfəran rənginə çalan meyvələrim var.*

*Gilas Gavalının səsini eşitcək ona belə tənə vurdu:*

*— Ey anlamaz, heç utanıb xəcalət çəkmirsən? Bəsdir özünü bu qədər tərif elədin. Səni yeyən adam gündə üç dəfə bal yeməsə, səni həzm edə bilməz. Mənim isə əynimdəki gözəl libasım heç bir meyvədə yoxdur, dənələrim göydəki ulduzlara bənzəyir. Hər budağım bir sərv ağacıdır. Bütün gözəllər mənim həsrətimi çəkirlər.*

*Bu sözləri eşidən Ərik qışqırıb dedi:*

*— Gör Gilas necə qudurub! Ey nadan, ey qarğa və sağsağanların yemi! Bu eyib ilə fəxr edib özünü öyürsən! Vücudun bir damcı su ilə sümükdən ibarətdir. Səni yeyən ziyandan başqa bir şey görməz. Səni qurudan bağban axırda zərərini çəkər. Mənim adımı Ərik qoyublar. Gah zümrüd kimi yaşıl, gah da qızıl suyuna salınmış kimi sarı oluram. Bağbanlar məni qurudur, karvanlar məni alıb ölkələrə aparırlar. Aparıldığım yerlərdə məni əziz tuturlar, mən hər yeməyin, bişmişin dadı, ləzzətiyəm.*

***Ardı var...***

# Diyircəkli araba



Qızım Kəmalə balaca idi. Həmişə bizim asfalt döşənmiş iri həyətdə oynayırdı. Amma balaca olduğu üçün böyüklər onu oynamağa çağırmırdılar. O da bundan incik halda kənarda durub ya tamaşa edir, ya da özü kimi xırda uşaqları başına yığıb oynayırdı. Bir gün Kəmalə yenə, nədənsə həyətin iri uşaqlarından incimişdi, divar dibində durub diyircəkli araba sürən oğlanlara baxırdı. Onlar qızcığazı arabaya mindirmək əvəzinə: «Əl-ayağa dolaşma, əzilərsən, sonra bütün günü zığıldayıb zəhlə tökərsən», - deyirdilər. Arabanın diyircəyi tez-tez ilişirdi. Uşaqlar ha əlləşirdilər, düzəldib rahat sürə bilmirdilər. Birdən Kəmalə özünü saxlaya bilməyib dilləndi:

— Siz dayanın, mən bu saat düzəldim.

Kəmalənin sözünə uşaqlar gülüşdülər, sonra nə fikirləşdilərsə:

— Yaxşı,—dedilər,—al düzəlt.— Özləri də maraqla tamaşa etməyə başladılar.

Kəmalə evə qaçdı, bir dolça su gətirdi, suyu arabanın çarxına tökdü, sonra dedi:

— Hə, di sürün!

Onun səsində elə bir möhkəmlik var idi ki, oğlan- lardan biri hətta gülümsündü, arabanı onun əlindən alıb sürdü, doğrudan da, diyircək asanlıqla hərəkətə gəldi. Uşaqlar bir səslə:

— Ay sağ ol, Kəmalə! — deyib onu da özlərilə oynamağa çağırdılar.







# Sağ əl

Bir dəfə bizə gələn qonaqlardan biri balaca Kəmaləyə belə bir sual verdi:

—A qızım, sağ əlin hansıdır?

Qızım duruxdu, deyəsən o sağ əlini unutmuşdu. Sonra tez stuldan endi.Qonaqla biz onun dalınca baxırdıq. Kəmalə mətbəxə qaçdı. Çox keçmədən qayıtdı, başı söhbətə qarışan qonağa yaxınlaşdı. Əlində tutduğu qaşığı yuxarı qaldırdı, şən və uca bir səslə dedi:

—Bax, sağ əlim budur.

# Xardal

Bir dəfə işdən evə qayıdanda qızımın həyətdə, balaca kətilin üstündə oturub gəlinciyini yırğaladığını gördüm. Kəmalə həmişəki kimi məni görcək quş kimi uçub qabağıma yüyürmədi. Mən ona yaxınlaşdıqda yerindən qalxmadı, qarşısında çöməldim. Qızımın üzü çox qəmli idi, ürəyim əsdi. Bəlkə uşaq xəstələnib deyə, həyəcanlandım. Soruşdum:

—Sənə nə olub, qızım?

O, dodaqlarını büzdü, titrək səslə dedi:

—Məni məktəbə götürməyəcəklər...

—Niyə?

—Mənim ağlım çatmır...

Mən donub qaldım:

— Bunu sənə kim deyib, qızım?

—Nazlı xala! Mən onların Toplanına xardal sürtülmüş çörək verirdim. İstəyirdim görüm, it xardalyeyər, ya yox. Bunu Nazlı xala gördü, mənə dedi ki, sənin ağlın çatmır. Səni məktəbə götürməyəcəklər.

Mən məsələnin nə yerdə olduğunu anladım, qonşu qadının sözü uşağın ürəyinə bərk toxunmuşdu, bunu ona unutdurmaq üçün dedim:

—Saymağı unutmamısan ki? Bir say görüm?!.

Kəmalə tez bildiyi rəqəmləri saydı, sonra da gözlərini üzümə zillədi.

—Qızım, lap yaxşı saya bilirsən. Axı sən mənim ağıllı balamsan. Səni məktəbə götürəcəklər. Amma bundan sonra itə xardal vermə.

Qızım şənləndi, gəlinciyini atıb-tutdu, yanımca düşüb hoppana-hoppana evə yollandı, qapıdan girənəcən elə hey deyirdi:

—Ay can, məni məktəbə götürəcəklər.






















Salam, dost! Necəsən? Tanımadın? Mənəm də, İncəhörüm... Hə, həmin İncəhörüm. Sənəgözəl-gözəl xəbərlər gətirən.

Yəqin sən də mənim kimi Karlsonun damdakı evini görmək arzusunda olmusan həmişə. Nəinki o evi, həm də o şəhəri, o ölkəni... Bunların heç birini görməsəm də, noyabrın 4-də F. Köçərli adına kitabxanada Karlsonun vətəni İsveç Krallığının ölkəmizdəki səfiri cənab Tomas Danestadı gördüm. Hətta onunla birlikdə Kitabxananın uşaq teatr studiyasının hazırladığı "Buratinonun kitabxana sərgüzəştləri" adlı tamaşanı da seyr etdim.Cənab səfirin kitabxanamıza hədiyyə etdiyi İsveçin məşhur uşaq yazarı Astrid Lindqrenin 9 kitabını da vərəqlədim. Sən də bu kitabları oxumaq istəyirsən? Lap yaxşı. Gəl kitabxanaya... Karlson necə deyirdi:"Səkkiz şamlı bir piroqdansa, bir şamlı səkkiz piroq yaxşıdır". İncəhörüm isə deyir:"Bir oxucusu olan doqquz kitabdansa, saysız-hesabsız oxucusu olan bir kitab yaxşıdır".





# ELAN!

**"Cırtdana məktub" mövzusunda əl yazısı müsabiqəsi!**

F.Köçərli adına Respublika Uşaq Kitabxanası 23 Yanvar - Əl Yazısı (hüsnxətt) Günü ilə bağlı kiçikyaşlı oxucular arasında "Cırtdana məktub" mövzusunda əl yazısı müsabiqəsi elan edir.

Müsabiqə yanvarın 12-dən 22-dək davam edəcək.

Əziz Oxucular! Siz kitabxanamızın daimi sakini Cırtdanın poçt qutusuna öz xəttiniz ilə yazılmış məktubunuzu atmaqla müsabiqəmizin iştirakçısı olacaqsınız. Hər iştirakçı müsabiqəyə bir məktub təqdim edə bilər. Məktublar bir səhifədən çox olmamaqla məktub formasında yazılmalıdır. Bütün məktublar iştirakçının ən sevdiyi nağıl qəhrəmanına ünvanlanmalıdır.

Müsabiqədə "Ən gözəl xətt sahibi" adını qazanan oxucuya kitabxananın dərc etdiyi "Göy Qurşağı" uşaq jurnalının son sayı hədiyyə ediləcək.

Təşkilat komitəsi

Ünvan: Bakı şəh., Nəsimi r-nu, S.Vurğun 88.

Əlaqə telefonu: 597 08 79

# Əl yazısı günü



Ah... Bilirsiniz, necə sevirəm gözəl xətlə yazılan məktubu oxumağı. Sıra-sıra hərflər mənə sapa düzülmüş muncuğu xatırladır. Nə isə... Sizə ƏL YAZISI GÜNÜ haqqında söyləmək istədiklərim var.

23 Yanvar - Əl yazısı günü münasibətilə F.Köçərli adına Respublika Uşaq Kitabxanasının 6-10 yaşlı uşaqlar arasında keçirdiyi "Cırtdana məktub" müsabiqəsinin nəticələri açıqlandı.

Balaca oxucuların kitabxanamızın daimi sakini Cırtdanın poçt qutusuna atdıqları məktubların arasından üç ən gözəl xətlə yazılmış məktub seçildi:

1. Məsimova Şəfiqə
2. İsgəndərli Süsən
3. Köçərli Əsma

Diqqətinizə çatdırım ki, Yazı Vasitələri Assosiasiyası 23 yanvar tarixini Əl Yazısı günü elan etmişdir. Psixoloqlar qeyd edir ki, əl yazısı vasitəsilə insanın bütün daxili aləmini öyrənmək olar. Gözəl yazmağa çalışın, dostlar. Sizə uğurlar!

İncəhörüm



Salam. Mənim adım Əsmadır. Mənim ən çox sevdiyim qəhrəmanım qırmızı-papağdır. Necəsən? Mən yaxşıyam.
Mən sənin nağılını oxuyanda çox xoşum gəldi. Mənim gözümün qarşısında meşə canlandı. Sən hər şeyi özgəsinə deməli deyilsən. Biz bilirik ki, yoldan gecənə, tanımadığımız adamlara sirri və yaxudda hara getdiyimizi deməməliyik. Sənin və nənənin həyatı üçün çox təhlükəlidir. Əgər ovçular olmasaydı bəlkə də siz ölə bilərdiniz. Mənə sənin kimi nənəmi çox istəyirəm. Nənəmin qayğısına qalıram. Ona xəstələndə çay verirəm. Mən xoşladığım rənglərdən biri də eləqırmızıdır. Elə mənim də həmçinin sənin kimi qırmızı rəngdə donum var.



Əziz Cırtdan mənim sənə bu məktubu yazmağımın səbəbi oxuduğum məktəbimizdə sənin adına müsabiqə keçirilir. Mən səni hələ balacalıqdan tanıyıram. Sən mənim ən sevdiyim nağıl qəhrəmanım idin. Hər gecə sənin nağılını dinləyirdim. Sən o qədər cəsur və igidsən ki, yaşının kiçik olmağına baxmayaraq dostlarını və özünü divin əlindən xilas etdin. Mən kiçik yaşımda elə düşünürdüm ki, sən nənənin sənə verdiyi yağ-çörəklə güclənmisən. Ona görə də mən hər gün çoxlu-çoxlu yağ-çörək yeyirdim. Səhər, axşam, günortə oyun oynadıqda, yatanda həmişə yağ çörək yeyirdim. Hətta gözləyirdim ki, dostlarım gəlib məni meşəyə odun yığmağa çağırsınlar. Və mən orda ki divi məğlub edim. Sən o qədər ağıllı və cəsursan ki, hətta hiyləgər divi belə məğlub etdin. Mən hər zaman düşünürdüm ki, yediyim yağ-çörəklərə görə sənin kimi dostlarımın qəhrəmanına çevriləcəm. Amma indi isə mən böyümüşəm. Artıq sənin nağıllarını öz bacılarıma, qardaşlarıma oxuyuram. İnanıram məktubumu həvəslə oxuyacaqsan.



Salam,
Ey divlərin qənimi, az getdin, çox getdin, dərə-təpə düz getdin, qarnını doyurdun, işıqlı yolların təhlükəli, aldadıcı olduğunu da bizə öyrətdin. Nəhəng divə xəlbirlə su daşıtdırmağı da bacardın, ağlın çəkisinin çay daşlarından da ağır olduğunu öyrətdin. Dar ayaqda dostlarını atmadın, onların həyatını xilas etdin.
Səndən öyrəndiyim - dostluğa sədaqət, bəzən hiyləgərlik, ağıl və cəsurluq oldu. Sən demə, ağıl yaşda deyil, başdaymış.
Əziz Cırtdan, hər balacanın yatmazdan əvvəl qonağı olub, yuxulara səyahət edirsən.
Mən səninlə böyüdüm əziz DOSTUM!!!
Tarix: 18.01.2017.
İmza: Məsimli Şəfiqə.

# Ələmdar Quluzadə 65



O nun uşaqlar üçün yazdığı şeirləri oxuyanda gülümsəməmək mümkün deyil. Nəinki gülümsəməmək, hətta qəhqəhə çəkməmək belə. Nə qədər duzlu-məzəli, nə qədər səmimi, nə qədər maraqlı, nə qədər bol məlumatlı... yazmaq olar?! Bu sualın cavabını yalnız uşaqların sevimli şairi Ələmdar Quluzadə verə bilər. Heç özü danışmasa belə. Bircə dənə şeirini oxusan, bütün bunlara cavab taparsan. “Dilotu” yeyən, “Navalça”da yağışın nəğməsini dinləyən, “Bulaq suyu” içən, “Boğça”-boğça şeir oxuyan, “Qadan mənə Qarabağ” deyən “Məhləmizin uşaqları” Ələmdar Quluzadənin şeirləri ilə böyüyüblər. Onun tərtəmiz dilinin, axarlı-baxarlı təxəyyülünün, incə zövqünün məhsulu olan şeirləri ilə... 65 yaşın mübarək, aziz Ələmdar Quluzadə!

## Bakının yeddi kəndi

Yığdı tutun dibinə
Yayda bütün uşağı –
Pirşağı.
Bizi sıraya düzüb
Qaldırdı bir daş-dağa –
Maştağa.
Gördük elə gözəldir
Bu qəsəbə, bu zona –
Buzovna.
Çay qonaqlığı verdi
Gündə beş-on stəkan –
Mərdəkan.
Torpaqları oxşayır
Qızıla da, zərə də -
Zirədə.
Dənizdə çimmək üçün
Yollandıq bir məkana –
Türkana.
Baxdıq dərədə gölə,
Çıxdıq yaşıl yola da –
Qalada.

Yeddi kənddə olmuşam,
O biri kəndlərə də
Gələn il gedəcəyəm.
Yay başa çatan kimi
Sizi başıma yığıb
Mən söhbət edəcəyəm.

## Zəhmətkeş oğlan

Zəhmətlə öyrədibdir,
Ana gündə Hikməti.
Gündən-günə artıbdır,
Hikmətin də hörməti.
Onun xətri-hörməti,
Başından aşıb-daşdı.
Hikmət lovğalanaraq
Anasına yanaşdı:
-”İndən belə bir dəfə
Evi töküb-dağıtsam,
Onda töhmət ver mənə,
Mən zəhməti sevirəm,
Ana, zəhmət olmasa
Gündə zəhmət ver mənə.”

## Kitabın dostu

Sınağa, imtahana
Kitablar sinə gərir,
Görmədiyin dünyanı
Kitab sənə göstərir.

Kitab kimini şair,
Kimini alim edib.
Sənin müəllimini
Kitab müəllim edib.

Kitabın min sirri var
Sənə deyim birini,
Kitab oxumayana
Kitab vermir sirrini.

Kitabla dostluq edən
Dostunu düz tanıyır,
Kitab öz dostlarını
Hamıdan tez tanıyır.

# Sirli dəyirman

Keçmiş zamanlarda qədim məmləkətlərdən birində bir gənc vardı. Bu kəndin bərəkətli torpaqlarında min cür naz-nemət yetişirdi. Aclıq bir neçə dəfə sınağa çəkdiyi üçün kənd camaatı ən çox taxıl əkərdi. Amma bu kəndin dəyirmanı yox idi. Döyülən taxılın çoxu uzaq-ucqar yerlərdəki dəyirmanlara aparılır, xərci-xəsarəti çox olurdu.

Elə ki, zəmilər biçildi, xırman döyüldü, cütçünün qara günü başlayırdı. Kimisinin taxılını xırmandan oğurlayıb aparırdılar, kimisini də at, öküz arabası ilə birgə yox edirdilər. Bu, dəyirman dərdindən də betər idi.

Kənddə ansının gözünün ağı-qarası Baxış adlı bir oğlan vardı. Atadan yetim qalan uşaq evdə kişi işini görürdü.

Yenə də il yaxşı gəlmişdi. Cütçülər oraqlarını itiləyib düşmüşdülər zəmilərin canına. Hər xırmanda üç illik azuqə vardı. Baxışın da zəhməti hədər getməmişdi.

Bir axşam iki çuvalı ağzına qədər doldurdu. Qonşular köməkləşib öküzü yüklədilər. Baxış “ho” deyib öküzü qabağına qatdı. Xırmandan xeyli aralanmışdı ki, gördü çuvalın birindən dən tökülür. Əlini çuvalın söküyünə qoyub öküzü hohaladı. Birdən qarşıda iki qara kölgə gördü. Uşaq qorxusundan qaçıb böyürtkən şəlinin içində gizləndi. Kölgələrdən biri bağırdı, nərə çəkdi:

- Kimdir bu öküzün sahibi!

Baxış cınqırını çıxartmadı.Yekə, qara kölgələr ora-bura baxandan sonar öküzü qabaqlarına qatıb apardılar. Baxış gecə yarısı şəlin içindən çıxdı. Kor-peşiman evlərinə yollandı.

Səhəri xəbər bütün kəndə yayıldı. Anası nəzir dedi, qapı-qapı düşüb qurbanlıq payladı ki, oğluna xətər toxunmayıb.

Həmin hadisədən sona Baxışın gecəsi-gündüzü yox idi.

Bir gün Baxış qara quldurlarla qarşılaşdığı yerə gəldi. Fikirli-fikirli bir daşın üstə çökdü. Birdən gözünə yaşıl cücərtilər dəydi. Bir buğum boy göstərən buğdalar sap kimi uzanıb gedirdi. Baxış yolu biləyinə doladı. Yarım gündən sonra gəlib çatdı bir təpənin başına. Gördü ki, anasının toxuduğu çuval bir daşın dibindədir. Uşaq barmağını dişlədi. Başa düşdü ki, bu göyərən taxıl çuvalın söküyündən tökülən dəndir.

Baxış bir az da qabağa gedəndə gördü ki, bura sıldırım qayadır, uçurumdur. Qulaqlarına su şırıltısı dəydi. Çayın üstündə bir ev vardı. Dağın bu tərəfindən çıxan çay dağın o biri tərəfində yox olurdu. Baxış sirli bir aləmə düşmüşdü.

Elə bu vaxt iki dağ boyda bəd bədheybət qapıdan çölə çıxıb gərnəşdi. Kimisə səslədilər. İçəridən üst-başı unlu saqqallı bir kişi çıxdı. Qara quldurlardan biri soruşdu:

- Qoca, dən neçə günə çatar!?

Qoca qorxa-qorxa cavab verdi:

- Üç günə…

- Onda ova çıxmaq lazımdır! - deyib qocanı itələyib qapıdan işəri saldı. Baxış qocanı tanıdı. Cütçü Cümşüd idi. Üç il qabaq yoxa çıxmışdı.

Qara quldurlar taxtın üstündə oturdular. Bir neçə adam onların qarşısında süfrə açdı.

Baxışa hər şey aydın oldu. Xırmanları oğurlayanlar, atları, öküzləri, adamları ilim-ilim itirənlər bu qara quldurlar imiş.

O, sinəsini bir himə bənd olan qaya parçasına gərdi. Gücü gəldikcə daşı itələdi. Sal daş yerindən qopub ağac körpünü paraladı. Qara quldurlar bircə dəfə bağırıb o dünyalıq oldular.

Səs-küyə, gurultuya birincı cütçü Cümşüd çıxdı. Onun dalınca da qulluqçular. Əllərini göyə açıb Allaha şükür eləməyə başladılar.

Bütün obaya car çəkildi ki, bəs möcüzə olub. Sirli dəyirman tapılıb. İtənlər sağ-salamatdırlar. Camaat tökülüb təpənin başına gəldi. Cütçü Cümşüd anbarın qapısını açdı. O il heç kəs çörək korluğu çəkmədi.

Balaca Baxışı hamı barmaqla göstərirdi:

- Qara quldurları məhv edən, sirli dəyirmanı tapan bu oğlandır. Beləliklə, eldə-obada oğurluğun kökü kəsildi, dəyirman camaatın əlindən tutdu.



# Qanadlı dostlar

Elvira Məmmədova

Bala qartal yuvadan boylanıb ətrafa baxdı. Meşə, çöl-çəmən, çaylar ayağının altında idi. Axı yuvası hündür dağın zirvəsində yerləşirdi. Ana qartal ətrafı təəccüblə seyr edən balasının başına qanadı ilə sığal çəkib təbəssümlə dedi:

- Qartallar zirvədə yaşayar, ən yüksəkdə uçarlar.

- Ana, axı mən uçmağı bacarmıram.

- Öyrənəcəksən, balacan. Çünki sənin qanadların var. Nəinki uçmağı, ov ovlamağı, dost qazanmağı da bacaracaqsan!

- Ay ana, mənim dostlarım olacaq?! Nə yaxşı! Özümə çoxlu dost tapacağam...

Ana qartal günlərlə balasına qanad çalıb uçmağı, ov ovlamağı öyrətdi. Sonra isə balasını qanadının altına çəkib ona tapşırdı:

- Dostlarını isə özün seçəcəksən. Unutma, özün kimi qanadlı dostlar tapmalısan!

Bala qartal bir gün zirvədəki yuvasından uçub dost axtarışına çıxdı. Xeyli yol qət etdi, nəhayət, meyvə bağındakı alma ağacına qondu. O, ağacdakı qoşa yarpaqlı, qıpqırmızı almanı görüb sevincək söylədi:

- Axır ki, səni tapdım qanadlı dostum! Nə gözəl qanadların var?

Alma nazla qartala baxıb dedi:

- Bunlar, qanad deyil, yarpaqlarımdır. Düzdür, qanadlara bənzəyir, amma mən uça bilmirəm. Bütün yarpaqlar, budaqlar ağacların qol-qanadıdır. Bu yarpaqlar ətraf mühiti təmiz oksigenlə təmin etməyə, insanlara dincəlmək üçün kölgə salmağa, yaşıllığımızdan zövq almağa xidmət edir.

Almadan qanadlara bənzər yarpaqlar haqda faydalı məlumatlar eşidən bala qartal, qanadını sinəsinə qoyub almanın qarşısında baş əydi:

- Gəl, səninlə dost olaq. Mən bala qartalam.

Alma gülümsədi və elə saplağındaca fırlana-fırlana dedi:

- Mən şirin almayam. Meyvə bağındakı bütün meyvələrlə dostam. Amma qartal dostum yox idi.

Bala qartal almaya lap həsəd apardı:

- Şirin alma, sənin nə çox dostların var? Amma sən mənim ilk dostumsan.

Dostlar bir xeyli söhbət etdilər. Onlar yeni dostluğa çox şad idilər.

Bala qartalı qarşıda növbəti dostluq-



lar gözləyirdi. O, alma ilə sağollaşıb sevinə-sevinə uçub getdi. Alma ağacının yarpaqları və budaqları bala qartala əl elədi.

Dost tapmaq üçün bala qartal çox uzaqlara uçdu və gəlib, böyük, ucsuz-bucaqsız, qoynu səma kimi mavi, dalğaları bulud kimi ağappaq okeanın sahilinə çatdı. Okeanın sahili bir tərəfdən meşə, digər tərəfdən sıldırım qayalarla əhatələnmişdi. Bala qartal sıldırım qayaya qonub həyatında ilk dəfə gördüyü mavi gözəlliyi iti gözləri ilə seyr etməyə başladı. Okeandan əsən meh bala qartalın ipək kimi tüklərinə anası tək nəvazişlə sığal çəkirdi. Bala qartal qanadlarını açıb səmada, okeanın üzərində qıy vuraraq doyunca süzdü. Sonra yenə qayaya qonub məğrur duruşu ilə gözlərini sanki okeanın bitdiyi üfüqə zillədi. Birdən üfüqdə qara bir nöqtənin sahilə doğru, ona tərəf gəldiyini gördü. Qara nöqtə getdikcə böyüyür, böyüdükcə ağappaq yelkənlər aydın görünürdü.



Böyük, ağ yelkənli gəmi küləyin nəfəsi ilə okean sularını yara-yara sahilə çatdı. Bala qartal gəminin ətrafına dolandı. Ən hündür yelkən dirəklərindən birinə qonub gəmini salamladı. Gəmi bala qartalı gülərüzlə qarşıladı. Bala qartal ağ yelkənli gəmiyə öz dostluğunu təklif etdi:

- Mən ilk dəfədir ki, belə iri qanadlar görürəm. İstərdim ki, mənim dostum olasan.

Gəmi gülümsəyərək cavab verdi:

- Qanad dediyin yelkənlərimdir. Bala qartal, mən bu iri yelkənlərimin köməyi ilə səyahət edərkən saysız-hesabsız dostlar qazanmışam. Dünyanın hər yerində dostlarım var. Adalar, yarımadalar, kitlər, balinalar...

*Ardı var...*




Bu faciənin tarixi çox qədimlərə getmir. 25 ildir ki, törədilib. Amma özündə 25 əsrin acısını-ağrısını yaşadır. 25 əsrin görmədiyi faciədir Xocalı faciəsi. Bir şəhərin yerlə-yeksan edilib, bir xalqın soyunu-kökünü yer üzündən silmək məqsədilə həyata keçirilən qanlı qətliamdır Xocalı qətliamı. Fevralın 26-da biz dərin hüznlə onu anacağıq. Xocalını... Yer üzünün ən bədbəxt şəhərini, yer üzünün ən talesiz xocalılılarını...

## QAN DAMIR «XOCALI» SÖZÜNDƏN

...Yenə Xocalı faciəsinin
növbəti ildönümü.
müsibətimizin
şəkilləri sərgilənir,
dərdimiz təzələnir,
könlümüz güllələnir...
«Xocalı» sözündən qan damır
içimizə...
Əsəblərimiz gərilir,
yumruqlarımız düyünlənir,
itirdiklərimiz,
atamızın şəhid olması
belə bizə adi gəlir
Xocalı yarasının ağrısını
hiss edincə...

Torpağımıza yağan qarı
qanımıza boyadılar...
«Torpaqlarımız geri qayıdacaq», –
deməyin,
«Qanımızı düşməndən alacağıq,
mütləq almalıyıq», –
söyləyin...


Heydərov Heydər


Salmanova Şölə


Məmmədov Eldar


Həsənəliyeva Gülər

## XOCALI



Əliyev Pərviz

Xocalı qan ağlayır,
Ürəyimi dağlayır.
Gözlərim dolur yaşla,
Qəm könlümü oxlayır.

Amma biz ağlamaqla,
Bu dərd sağalan deyil.
Xocalını almasaq,
Bir də doğulan deyil.


Əliyeva Mələkxanım

## XOCALI


Mirzəliyev Cavid

Ağappaq qar üstünə,
Qanı çilənmiş balam.
Gün görməmiş gözləri,
Aman... tökülmüş balam.

Anası  saçlarından,
Göydən asılı qalmış.
Atası «VƏTƏN», - deyə,
Düz ağzından vurulmuş.

Babası  buz heykəli,
Torpaq üstə yıxılmış.
Nənəsi  havalanıb,
Dili-ağzı tutulmuş.

Bacısı, qardaşları,
Qıyma-qıyma doğranmış.
Utansın belə dünya,
Zülmü artıq ağ olmuş.

Bir oba – bir məzarlıq,
Bütün nəsil qırılmış.
«UNUTQANIQ», - deməkdən
Daha dilim yorulmuş...

Biz unutqan olsaq da,
Tarix bunu unutmaz.
Türkün əzəl düşməni,
Türkə heç vaxt dost olmaz
Türkə heç vaxt dost olmaz...

Rəhimli Nuriyə


## QARĞIŞ

...Novruz tonqalından
atlana bilmədi
Xocalı uşaqları,
qaldı yağı əlində...
Ay zalım düşmən,
səni odda yanasan,
suda batasan,
çörəyimiz tutsun səni –
boğulasan!
Daşın daş üstə qalmasın heç!
Bu əziz, kövrək günümdə,
Qarğışım tutsun səni!

Atakişiyev Qurban


**Mina RƏŞİD**

Keyt Di Kamillo

# Dovşan Edvardın qeyri-adi səyahəti

## Yeddinci hisssə

O özü-özünü əmin etdi ki, Abilin mütləq gəlib onu tapacaq. Sadəcə, səbrlə gözləməlidir.

Abilinin məktəbdən gəlməyini necə gözləyirdi, bax elə. Özümü elə göstərməliyəm ki, Misir küçlərindən birindəki evdə, pəncərənin önündə oturub gözlərimi saata zilləmişəm – kiçik əqrəb üçə yaxınlaşır, böyük isə on ikiyə. Heyif ki, mənim saatım yoxdur və vaxtın necə ötdüyünə nəzarət edə bilmirəm. Əslində, bu o qədər də vacib deyil. Əsas odur ki, Abilin gələcək, özü də çox yaxın günlərin birində.

Saatlar, günlər, həftələr, aylar ötürdü.

Abilin isə gəlmirdi ki, gəlmirdi.

Və işsiz-gücsüz Edvard da düşünürdü. O, ulduzlar haqqında düşünür və elə fərz edirdi ki, ulduzları öz yataq otağının pəncərəsindən seyr edir. Maraqlıdır, onlar necə də parlaq işıq saçır. Görəsən,



onlar kimin üçün belə parıldayırlar. Heç vaxt ulduzlardan belə uzaq olmamışdı.

Onun düşündükləri sırasında cadugər qadının donuza çevirdiyi şahzadə də vardı. Bax elə buradaca Edvard Peleqrinanı xatırladı. Hətta ona elə gəldi ki, başına gələnlərdə Peleqrinanın da günahı böyükdür. Elə bil onu okeanın dibinə oğlanlar deyil, Peleqrina tullamışdı. Peleqrina öz danışdığı nağıldakı cadugərə bənzəyirdi. Bənzəmək nədir, o elə əməlli-başlı cadugərdir ki, durub. Edvardı donuza çevirə bilmədisə də, amma necə lazımdır cəzalandırdı.

Tufan Edvardın okean dibində olduğu iki yüz doxsan yeddinci gündə başladı. Tufanın qaldırdığı vəhşi dalğalar onu yerindən tərpətdi, saman çöpü kimi çalxaladı, yellədi, suyun altına-üstünə çırpdı.

– Kömək ediiiiiin!

O bir dəfə suyun lap üst qatına sıçradı. Bu çox ani oldu, amma buna baxmayaraq, Edvardın boynuna-boğazına hava dəydi, qulaqlarına küləyin uğultusu gəldi. Və Edvard macal tapıb onu düşündü ki, nə qədər tufan, qasırğa olsa belə, hava sudan qat-qat yaxşıdır. Qəfildən hava sakitləşdi. Küləyin səsi kəsildi. Və Edvard hiss etdi ki, yavaş-yavaş suyun dibinə gedir.



– Kömək ediiiiiin! Kömək ediiiiiin! Mən yenidən suyun dibinə düşmək istəmirəm. Nə olar, kimsə mənə kömək etsin!

Amma o get-gedə daha dərinə düşürdü.

Qəfildən çox böyük balıqçı toru dovşanı caynağına keçirdi və onu çəkib suyun üzünə çıxartmağa başladı. Tor qalxdıqca qalxdı və qəflətən Edvardın gözləri gün işığından qamaşdı. O havaya qalxdı və torun içindəki balıqlarla birlikdə göyərtəyə endi.

– Aaaa... Bu nədir belə? Baxın... – hansısa bir səs dedi.

– Hmm... Maraqlıdır. Balıq deyil, – deyə başqa biri dilləndi.

Edvard günəşə elə yadırğamışdı ki, ətrafda heç nəyi görmürdü. Təsvirlər tədricən aydınlaşdı. Gözünə əvvəlcə insanların bədənləri göründü, xeyli sonra sifətləri ayırd edə bildi. Və başa düşdü ki, göyərtədə iki nəfər var – cavan və qoca.

– Deyəsən oyuncaqdır, – ağsaçlı qoca dedi. O Edvardın qabaq pəncələrindən tutub qaldırdı. Diqqətlə baxdı. – Düz tapmışıq, dovşandır. Bax, bığları da var, bu da qulaqları. Əsil dovşan qulağı... Dimdik... Daha doğrusu, bir vaxtlar yəqin ki, dik dayanıb.

– Hə, qulaqları uzundur.

– Aparım bunu evə. Verim Nelliyə. Qoy əl gəzdirsin, yusun təmizləsin, qaydaya salsın əynini-başını. Sonra bağışlayarıq hansısa bir uşağa.

Qoca Edvardı üzü dənizə oturtdu ki, o mavi sulara baxa bilsin. Edvard isə dənizdən elə bezmişdi ki, heç ona gözünün ucuyla belə baxmaq istəmirdi.

– Hə sən hələlik burda otur, – qoca dedi.

Onlar yavaş-yavaş sahilə yaxınlaşırdılar. Edvar hiss edirdi ki, günəş artıq onu qurudur, xəfif külək qulaqlarında qalan tükləri titrədir və qəfildən hansısa bir hiss qəlbini doldurdu, çox qəribə, əsrarəngiz bir sevinc..

O xoşbəxt idi. Yaşadığı üçün…

Bunu qoca balıqçı hiss etdi.

– Sən bu şələqulağa bax... görünür ki, çox xoşbəxtdir, düzdür?

– Düz tapmısız, – oğlan dilləndi.

Edvard Tüleyn o qədər xoşbəxt idi ki, yanındakıların onun qulaqları haqda dediklərini heç vecinə də almadı.

*Ardı var...*

**Rus dilindən çevirdi: Sevinc Nuruqızı**

# Alpaka





200 ildən artıq bir müddətdir ki alpaka insan övladı ilə çiyin-çiyinə yaşayır. Qədim inklər bizim eradan təxminən 500 il əvvəldən alpakanı əhliləşdirmişlər. Məqsəd onun ətindən, südündən və yunundan istifadə etmək olmuşdur. Hətta alpakanın peyini də inklərin yurd yerlərini qızdırmaq məqsədilə istifadə edilmişdir. Alpaka “inklərin qızılı” adını təsadüfən almamışdır. Qədim hindlilər də alpakaları eyni məhəbbətlə sevmişlər.

Alpaka yunu yunlar şahıdır, desəm, yəqin ki, etiraz edən olmaz. Qoyun yunundan yüngül, dəvə yunundan isti və rəngarəng... Təsadüfən demədim rəngarəng sözünü. Alpaka yununun 24 rəng çaları var. Qədim inklərdə Alpaka yunundan hazırlanmış geyimi yalnız hökmdarlar geyinərdi. Alpaka yunu bədəni qaşındırmır, ona rahatlıq verir. Bu yundan hazırlanmış geyimdə olan insan ətirdən istifadə etməsə də olar. Çünki yunun ən bahalı fransız ətirlərindən də gözəl ətri var.



Ay yazıq alpaka... İşə bir bax. Sən demə, onun qabaq dişləri heç olmayıb. Anadangəlmə. Qidanı dodaqları ilə götürüb, ovurdlarına ötürür. Və çeynə-





Uakaya



Suri



yir. Özü də ən çox sevdiyi qida tikanlı ot, qupquru samandır. O qurmandır. Ən nadir ağacların yaşıl zoğları onun sevimli yeməyidir.

Alpaka hər şeyi öyrənməyə can atır, ağıllı, xeyirxah və olduqca mədənidir.

Avropada alpaka böyük hörmətə malikdir. Alpakasevərlər klublarında bu heyvanın pərəstişkarları toplanıb. Onlar bir-biri ilə mühüm məlumatları bölüşür, bu ekzotik heyvanın qidalanması, müalicəsi, bəslənməsi haqqında seminarlar keçirir, veterinar tövsiyələrini dinləyirlər.

Yüksək cəmiyyət üzvləri onu saxlamağı özlərinə şöhrət hesab edir. Alpakanın nəinki əti, südü, yunu qiymətlidir. Bu alicənab canlı ilə ünsiyyət çoxlarının çata bilmədiyi müalicə üsuludur. Mehriban və insansevər, həlim xasiyyətli alpakalarla dostluq autizmli uşaqların müalicəsi üçün əvəzedilməzdir.

Alpakaların iki növü var. Onların hər ikisinin çox şən adı var: **Uakaya və Suri.** Bu alpaka qardaşlar və yaxud bacılar, bir-birlərindən yununun uzunluğu ilə fərqlənir. Alpakalar əvəzedilməz müsiqiçilərdir. O qədər mükəmməl, təsvirəgəlməz səs çıxardırlar ki, bu gözəlliyi yalnız dinləmək lazımdır.

Alpaka olduqca zərif canlıdır. Soyuqdan və küləkdən qorxur. Elə bu xüsusiyyət onları əla sinoptik edə bilmişdir. Onlar yağış və külək haqqında hətta sinoptiklərdən də dəqiqliklə xəbərdar edə bilirlər.

Onların əcdadı və yaxud ən yaxın qohumu dəvədir. Üzdən bir-birinə çox bənzəyirlər. Amma boy və xasiyyət çox fərqlidir. Hətta uşaq belə alpakanı sevib oxşamaq üçün mütləq diz üstə oturmalıdır. Bir də onlarda heç də dəvəkini yoxdur. Onların qəlbində böyük bir sevgi var...



# YAĞIŞ YAĞIR



Ay can, ay can, yağır yağış
Ça, ça, ça, çıp, çıp, çıp, ğış, ğış, ğış...
Paltarım yaş, saçlarım yaş
Yanaqlarım naxış-naxış.
Nağma deyir çiçaklara
Gah hazin, gah gur tökülür.
Har çiçayin laçayina
Damcı-damcı nur bükülür...

Yağış haqqında şeir yazdım... Sonra istədim ki, onun haqqında sənə bir az daha ətraflı danışım. Deyim, sən də biləsən ki, yağış təkcə bizim planetdə yağmır. Başqa planetlərdə də yağır. Təbii ki, hər planetin yağışı eyni olmur. Məsələn, Venerada yağış şəklində yağan sulfat turşusudur, Saturn planetinin nəhəng peyki Titanda metan yağışları, Saturn planetinin özündə isə almaz yağışları yağır. Bəli, bəli, düz eşitdin... Parça-parça almazlar ələnir. Parlaq-parlaq... Bərq vura-vura... Hər il ərzində 1000 ton almaz yağır. Marsda quru buz, Yupiterdə helium, Günəşdə isə qaynar plazma... Deyirəm ki, nə yaxşı ki, Yerdə yaşayırıq. Rahat, sevimli, gülümsəyən Yer planetində. Biz insanlar bir-birimizin başına güllə yağışları yağdırmasaq, Yerin ilıq, nəğməli, səmimi yağışları canımızı ağrıtmaz... Mehriban Yerimizə nə yağır, necə yağır, nə vaxt yağır, hansı rəngdə yağır, nə ətri verir?! Gəl, bütün bunlar haqqında danışaq...

Bizdə su yağır. Tərkibi içdiyimiz sudan bir qədər fərqli olsa da, hər halda yağan sudur. Bu suyun nə cür yağmasından asılı olaraq adı dəyişir. Toz kimi yağan yağış – çiskin, asta-asta yağan – narın, bərk yağan – leysan. Bəs çobanaldadan? Hə... Günəşli gündə iri damcılar şəklində qəfil yağıb kəsən yağış "çobanaldadan"dır. Yəni ki, yağışdan qorxan çoban sürünü yığıb aparır evə və elə o saat da yağış kəsir...

Və hər yağan yağışdan sonra da sinədolusu yağış ətri.



Ətirli yağışlar, əsasən, quraq vaxtlarda yağan yağışlardır. Onlar torpaq ətri, çiçək ətri verir. Bəzən deyirlər ki, uzun müddət yağış yağmayanda çiçəklərin ətri torpağa hopur. Sonra yağışdan islanmış torpaq ətir saçır. Yağışdan sonra havada olan ətir Petriçor (yunan dilindən tərcümədə petra – daş, ichor – yunan mifologiyasında tanrıların damarlarında axan qan) adlanır. Bu ətirə görə biz geosmin adlı birləşməyə minnətdar olmalıyıq. Geosmin streptomitsin və göy-yaşıl yosunların fəaliyyətindən yaranan birləşmədir...

Yağış haqqında o qədər maraqlı və qeyri-adi faktlar var ki... Göydən balıq, qurbağa, soxulcan ələyən yağışlar, qırmızı, yaşıl, süd rəngli yağışlar və s. Bütün bunlar yağışı xarakterizə edən məqamlar deyil. Tufan, qasırğa ilə gələn yağışlar yeri-göyü alt-üst edə, dənizin, çayın, torpağın içində olanları sovurub göyə qaldıra və yerə ələyə bilər. Və yaxud atmosferdə olan müxtəlif maddələrin təsirindən qırmızı, yaşıl, süd rəngli yağışlar yağa bilər. Hətta kimsə quru yağışa düşdüyünü desə, başqa biri təəccüblənər. Quru da yağış olar? Olar, dost, olar. Səhrada quru yağışlar yağır. İstinin təsirindən yağış damçıları yerə düşməmiş buxarlanır və yağış quru yağır.

Hər gün radio və televiziya kanallarında eşitdiyimiz hava haqqında məlumatın yaranmasına səbəb də məhz yağışdır. Bir radiostansiya sahibi leysana düşüb və bundan sonra qərara gəlib ki, hər gün insanlara hava haqqında məlumat vermək üçün radio proqramı olmalıdır.

Sən yəqin ki, hər gün hava haqqında məlumatı dinləyirsən. Hidrodrometeroloq dilini bilirsənmi? Bilmirsənsə, bir-neçə sirri açım. Əgər sinoptiklər "qısamüddətli yağış" deyirsə, deməli, yağış 3 saatdan artıq yağmayacaq, əgər "yağmurlu olacaq" deyirsə, deməli, yağış ən azı yarım gün yağacaq. Əgər "hava yağmursuz olacaq" deyirsə, bu o demək deyil ki, yağış yağmayacaq. Yağa bilər, amma hər kvadrat metrə 0,3 litrdən artıq olmamaq şərtilə.

Bəs yağış-təqvim barədə sənə bir söz deyən olmayıb ki?! Olmayıbsa, mən deyim. Oqayo ştatının Uaynsberq şəhərciyində yağış artıq təqvimə çevrilib. Çünki 100 illər boyu hər il iyulun 29-u bu şəhərə yağış yağır. Və artıq insanlar yağış-təqvimə əsasən bilirlər ki, iyulun 29-udur.

Yer üzünün ən yağışlı şəhəri – Çarapundjadır. Para şəhərinin yağışları isə yağışa yağış-saat titulunu qazandırıb. Bu şəhərin sakinləri saatlarını yağışa görə qururlar. Çünki leysan yağışlar hər gün eyni vaxtda yağır. Uqanda sakinlərini isə heç bir gurultu ilə qorxutmaq olmaz. Çünki ilin 250 günü bura şimşəklə müşayiət olunan yağışlar yağır.

Sonda yağış haqqında bütün zamanların ən gözəl şeirini yadımıza salaq. Mikayıl Müşviq "Yağış":

Yağış yağır, rəqs eyləyir gur damlalar,
Sıra-sıra, inci-inci nur damlalar.
Göydə ıki qara bulud çatılaraq,
İldırımlar şaqqıldayır şaraq-şaraq.
Quşlar uçur yuvasına pırıl-pırıl,
Şırıldayır navalçalar şırıl-şırıl...






# Аннабель

Жила-была на свете корова. Звали её Аннабель. У неё часто болел живот. Но однажды она спасла корабль от кораблекрушения.

Как-то в туманный день Аннабель паслась на лугу в Корнуолле, у самого берега моря. Туман был такой густой, что она не видела даже своего носа и нечаянно проглотила колючий чертополох.

Ой-ой-ой! Как заболел у неё живот! Аннабель бросила щипать траву и громко замычала.

А в это самое время по морю плыл большой корабль. Капитан поднёс к глазам подзорную трубу, но не увидел ничего, кроме тумана.

– Где мы находимся сейчас? – спросил он старшего помощника.

– Точно не знаю, сэр! Где-то возле берегов Корнуолла.

– Дайте сигнал, – сказал капитан. Старший помощник капитана дал сигнал.

– У-у-у-у-у-у-у – загудела сирена.

Аннабель услышала сирену и подумала:

Наверное, ещё одна корова съела чертополох. Надо послать за доктором. – И она замычала в ответ, чтобы другая корова знала, что её услышали.

– Прислушайтесь! – сказал капитан. Старший помощник остановил сирену и прислушался. И сквозь волны и туман до них донеслось:

– М-у-у-у-у-у-у!

– Это мычит Аннабель, – сказал капитан. – Значит, мы где-то рядом с её лужайкой.

И он не теряя времени отдал приказание:



– Моп, сташина! Ах нет, стоп, машина!

– Полный назад!

– Бросить якорь!

– Дать сигнал!

Якорь ударился о дно, корабль остановился, а сирена опять загудела:

– У-у-у-у-у-у-у!

Капитан посмотрел за борт. Тут выглянуло солнце, и он увидел, что как раз вовремя остановил корабль: ещё минута, и они разбились бы об острые скалы.

Ему удалось спасти корабль только потому, что он услышал мычание Аннабель.

Тут он опять услышал:

– М-у-у-у-у-у-у! М-у-у-у-у-у-у!

– Странно, – подумал он, – она всё ещё мычит. Может быть, у неё болит живот?

И он послал на берег корабельного доктора с пилюлями, лечить Аннабель.

– Дайте ей ещё вот это! – сказал он и вручил доктору маленькую коробочку с большой серебряной медалью.

Когда доктор сошёл на берег, Аннабель всё ещё мычала, но доктор дал ей пилюли, и живот сразу перестал болеть.

– Капитан просил меня передать тебе ещё вот это, – сказал доктор.

Он достал коробочку, которую капитан вручил ему, и показал Аннабель. На коробочке было написано:

Аннабель от капитана – за спасение корабля.

А в коробочке лежала настоящая серебряная медаль.

Доктор повесил медаль Аннабель на шею. Аннабель была очень горда.

– Твоё мычание спасло наш корабль, – сказал доктор.– А теперь я должен спешить, так как нам надо плыть дальше, в Америку.

И он вернулся на корабль. Солнце светило ярко, туман рассеялся.

Аннабель поглядела на море.

– М-у-у-у! – сказала она.

– У-у-у! – ответил корабль.

Корабль отплывал всё дальше, и У-у-у! делались всё тише. Но капитан ещё мог разглядеть в подзорную трубу Аннабель с медалью на шее.

– М-у-у-у! – говорила Аннабель, глядя на море. – М-у-у-у!

И с большого корабля в открытом море в ответ тоже раздалось:

– У-у-у!

Аннабель чувствовала себя очень счастливой, она щипала травку, а её медаль так и горела на ярком утреннем солнце.



**Биссет Дональд - писатель, художник, актёр, режиссер. Он сказки писал короткими и сам их иллюстрировал. Сказки Биссета в нашей стране широко известны. Он очень хороший сказочник, детям очень нравятся его весёлые сказки.**



# Axan qumlar, yoxsa təbiət tələsi





Bu haqda oxuyanda indiyə kimi qumu insan həyatı üçün təhlükə mənbəyi hesab etmədiyin üçün təəssüflənəcəksən. Özü də nəinki insan həyatı, həm də heyvanlar, gəmilər, mayaklar, daha nə bilim nələr, nələr üçün... Bu təbiət tələsinin qurbanları haqqında danışmazdan öncə sənə onun özü haqqında məlumat vermək istəyirəm.

Axan qumlar bir neçə saniyədə insanı, nəhəng canlını, ondan da nəhəng gəmini, nəhəgdən də nəhəng şəhəri uda bilər. Axan qum – olduqca təhlükəli və amansız qatildir. Onunla mübarizə hələlik insan ağlı və gücü səviyyəsində deyil. Necə ki, insan vulkan, sunami, zəlzələ qarşısında acizdir, eləcə də axan qumlar... Axan qumlar adlanan təbii fenomenin elmi izahı var – bu, arasına su mənbəyindən axan sular dolmuş adicə qum qatıdır. Su üzü yuxarı qalxmaq üçün yollar axtarır. Təsəvvür edin, sakit sahil, qupquru qum, parlaq günəş. Və belə bir sahildə gəzən insan təhlükənin tam mərkəzindədir. Ayağı altından qumlar axır, hərəkət edən qum qatları onu özünə çəkməyə başlayır... Bu qum laylarının arasında üzmək olmaz, çabalamaq çox təhlükəlidir. Yalnız sakitcə, aramla, çox əl-qol atmadan ondan can qutarmaq mümkündür.

Axan qumluğu adi qumluqdan heç bir fərq ayırmır. Günəş üst qatı qupquru edib. Hətta bu qatda yamyaşıl ot da bitib. Bax tələ elə bu halda qurulur...

Yer üzündə axan qumların hökmranlıq etdiyi məkanlar çoxdur. Bu kədərli məkanların ən məşhuru İngiltərədəki Morkembe körfəzidir. İllər boyu bu yer 150-dən çox insan udub. Çəkilmə zamanı dəniz sahil xəttindən çox uzaqlaşır və dənizin dibi elə quruyur ki, təhlükəsizlik götüntüsü yaradır.







Və bu sahildə gəzmək istəyənlər axan qum tələsinə düşür. Sonra dəniz qabarması. 9 metr hündürlüyü olan dalğalar və son... İnsanları təhlükədən qorumaq üçün hələ 15-ci əsrdə İngiltərə hökuməti bu yerlərdə bələdçilər saxlayardı ki, yolçuları bu dəhşətli tələdən qoruya bilsinlər.

Başqa bir qatil məkan Alyaskadakı 80 kilometr axan qumlardan ibarət Tarnegen körfəzi ərazisidir. Atlantik okeanındakı Seybl adasının axan qumları isə daha iştahalıdırlar. Onlar nəhəng gəmiləri udmaları ilə şöhrət qazanıb. Batan gəmi dəhşətli dalğalarla sahilə atılır və elə sahildəcə onu başqa, daha təhlükəli qatil gözləyir – axan qumlar. Belə bir gəmiudan digər ərazi isə İngiltərədəki Saut-Forlend burnudur. Bu burunda Qudvin dayazı deyilən ərazi var. Həmin ərazi "gəmi qəbiristanlığı" adı ilə dünyada məşhurdur. Bu böyük ərazidə axan qumların tamam udduğu gəmilərin dor ağacları və paslanmış boruları, yarıudulmuş gəmilərin torpağa batmış burunları və daha nələr, nələr əbədi qum səssizliyində uyuyublar. Maraqlıdır... Gəmiləri təhlükədən xəbərdar edən mayak belə axan qum təhlükəsindən can qutara bilməyib. O da Qudvin qumlarının udduğu qurbanlardan birinə çevrilib. Faciə elə sürətlə baş verib ki, köməyə gələn helikopter mayakdan yalnız bir nəfəri xilas edə bilib.

Axan qumlar – daha bir təbiət möcüzəsi. Bu fenomeni hələlik heç bir alim və səyahətçi-ekstremal izah edilən təbii fəlakət hesab etmir.

"Ayağınız altında torpaq möhkəm olsun"... Axan qumlar haqqında eşidəndən sonra belə bir alqış növünün yaranması lap yerinə düşər. Uğurlu yol!



# Çox oxusan, çox bilərsən




*Bəxtiyar Vahabzadə.*
**Şəbi-hicran. Seçmə poemalar**
Kitab gözəl şairimiz Bəxtiyar Vahabzadənin yaradıcılığından seçmələrdən ibarətdir.




Bu kitabda kosmik tədqiqatların problemləri, nailiyyətləri və təsadüfi uğursuzluqlarından bəhs olunur.




Bu kitab kosmosun teleskoplardan süni peyklərə, zondlara və robotlara qədər müxtəlif vasitələrin köməyi ilə tədqiq edilməsi üsullarını nəzərdən keçirir.

## "RİKİ" SERİYASINDAN KİTABLAR




**Riki və dostları**
Fərqli mədəniyyətlər arasında dostluğa həsr olunmuş şəkilli kitab 4 yaşdan yuxarı uşaqlar üçün nəzərdə tutulub. Sən də oxu!




**Rikinin ad günü**
Riki ad günü təbrikinə gələn dostları arasında Annini görmür... Bəs o hardadır? Rikini daha hansı sürprizlər gözləyir?




**Riki və Dələ**
Riki ana və atasının köməyilə dələdən ayrılır. Sonra nə baş verir? Bunu bilmək üçün mütləq oxu!




Bitkilər niyə işığa tərəf yönəlir? Bitkiləri hansı alimlər öyrənir? Məlumat əldə etmək istəyirsənsə, “Bitkilərlə təcrübələr”i oxu.




Müxtəlif süxurlar haqda daha çox məlumat əldə etməyinə yardım edəcək elmi metodları öyrənmək üçün bu kitabı oxu.




Müxtəlif mayelər haqda daha çox məlumat əldə etməyinə yardım edəcək bu kitabı mütləq oxu.




Maqnit bütün metalları cəzb edirmi? Elmi metodlar alimlərə necə kömək edir? Məlumat əldə etmək istəyirsənsə, bu kitabı oxu.

**Bu kitablar ilk dəfə Belçika və Hollandiyada “Clavis Uitgeverij” nəşriyyatı tərəfindən Niderland dilində nəşr olunub.**




**Rikinin planı var**
Anasına ad günündə sürpriz hazırlayan cəsur və sevimli uşaqlar barədə maraqlı hekayə.




**Cəngavər Riki**
Bu cəsur qəhrəman əsl orta əsr cəngavərləri kimi təhlükəli əjdahalarla qarşılaşır.




**Riki ilə toyuq Mia**
Hamının sevdiyi bu hekayədə Riki öyrənir ki, bəzən ən yaxın dostun da tək qalmağa ehtiyacı olur.

# Məntiqi sual





Heykəltaraşın 10 eyni heykəli var. O istəyir ki, zalın hər divarına 3 heykəl qoysun. Heykəlləri yerləşdirməkdə heykəltaraşa kömək et.

İstənilən üsulla verilmiş fiquru elə böl ki, 2 eyni, nisbətən kiçikölçülü fiqur alınsın.



1-dən 9-a qədər olan rəqəmləri xanalara elə düz ki, bütün cavablar uyğun gəlsin. Mərkəzdə lazım olmayan bir rəqəm olmalıdır.







Gəzinti meydançasında 6 it və hər itin öz sahibi var. Qırıq xətlər-xaltalarla (nümunədə göstərilən üsulla) it sahibləri və itlər olan xanaları rəqəmlərlə birləşdir. Xatırladım ki, rəqəmlər xaltanın uzunluğunu (yəni xaltanın keçdiyi boş və itli xanaların cəmi) göstərir. Xaltalar bir-birinə toxunmamalı və kəsişməməlidir.

## Ötən sayımızdakı məntiqi sualların cavabları

### Ayaqqabı istehsalı



**Cavab:** Fabrikdəki fəhlələrin oğurladığı ayaqqabılar (yəni, ayaqqabının hər iki tayı).



### Müəllif hüquqlarının qorunması

**Cavab:** Adətən onlar lüğətə mövcud olmayan söz, atlasa isə mövcud olmayan ada daxil edirlər.

### Göldə suzanbaqları



**Cavab:** İki suzanbağı gölün səthini bir aydan bir gün çıxmaq şərti ilə örtərdi.

### Büllur şəbəkə

Şəkildə atomlardan ibarət büllur şəbəkə verilib. Atomların birləşməsindən 8 bərabərtərəfli üçbucaq alınıb. 4 birləşdirici bəndi elə götürün ki, şəkildə 4 bərabərtərəfli üçbucaq alınsın.



# Futdablbol



Bir atalar sözü var:"İki dovşan dalınca qaçan heç birini tuta bilməz". Bəs iki top? Görəsən, iki top dalınca qaçanın başına nə gələr? Başına nə gələr, deyə bilmərəm, amma adı futdablbolçu olar...

Dünyada 12 növ futbol oynanılır. Bunlardan biri də futdablboldur. Bu futbolda "oyundan kənar" vəziyyət yoxdur. Meydançada iki top və iki hakim var.

Oyun belə başlayır. Hər komandanın qapıçısı oyuna bir top daxil edir. Hər hakim bir topa nəzarət edir. Toplar müxtəlif rənglərdə olur. Hakimlər də müxtəlif rəngli geyimlərdə. Hər oyun 45 dəqiqə davam edən iki hissədən ibarətdir. Hakim fitlərinin də səslənməsi müxtəlifdir. Oyunun məqsədi rəqib komandanın qapısından qoşa top keçirmək, öz qapısını qoşa topdan qorumaqdır. Bu oyun intellektualların oyunudur desəm, yanılmaram. O qədər iti düşüncəyə sahib olmalısan ki, meydanda iki topa eyni anda nəzarət edə biləsən, hakim fitlərini səslənməsini ayırd edib nəticə çıxardasan, lazımi qərarı vaxtında verəsən.



Futdablbolda təkcə qol həyacanı yaşanmır. Bu oyunda çox maraqlı məqamlar var: iki cərimə zərbəsi, iki künc zərbəsi... Komanda həmrəyliyi burada mütləqdir. İki topu eyni anda vurmaq məharəti böyük əhəmiyyət daşıyır. Qapıçıya bir topu qaytarıb, o birini tutmaq fürsəti verilməməlidir. İki top – iki eyni anda vurulmuş zərbə. Nəticədə, iki dovşan dalınca qaçmış qapıçı və dablqol...

Bu oyunun müdafiəsi də ikili həyəcan yaşatdırır. Qapını eyni anda vurulmuş iki cərimə zərbəsindən qorumaq o qədər də asan deyil. Və bunu bacaran əsl futdablbolçudur.

Futdablbol futbol deyil. Və onu hər şəraitdə oynamaq mümkün olmur. Oyun üçün lazımi hazırlıq olmasa, bu oyun oynanılmaz. Oyunun aparılması üçün mütləq iki hakim və iki məşqçi olmalıdır. Hələ iki müxtəlif rəngli topu demirəm. Fit haqqında isə heç danışmağa dəyməz. Həyat futbolu isə bütün bunları sevmir.

Futdablbol futbolla müqayisədə daha gənc oyundur. İlk futdablbol oyunu 2007-ci ilin oktyabrında keçirilib. Və ilk oyunun nəticəsi acınacaqlı olub. İki dovşan, bağışla, çaşdım, iki top dalınca qaçan oyunçular meydançada qarmaqarışıqlıq yaradıblar. Hakimlər nə edəcəklərini düşünənə qədər vaxt əldən gedib. Hətta hakimlər o qədər çaşıblar ki, oyunun hansı hesabla bitdiyini belə bir xeyli hesablamalı olublar.

Futdablbol oyunu üçün meydança futbol meydançasından heç nə ilə fərqlənmir. Oyunçular bir-birini əvəz edə bilər.

Hə... Nə fikirləşdin? Əlbəttə, bir topun dalınca qaçmaq yaxşıdır. Sənə uğurlar...



# Kiçik ixtiraçıların Böyük ixtiraları

İllər öncə, hələ mobil telefon və planşetlərlə tanış olmadığımız "qaranlıq" zamanlarda, rəfiqəmlə o zamanın oyunlarını oynayırdıq. Kiçik bir qəsəbədə böyüyürdük. Böyük sivilizasiyadan bir qədər kənarda. Televiziyada yemək yeyən oyuncaq gəlincik reklamını ağzıaçıq izləyirdik. Belə bir gəlinciyi nəinki biz, heç bizim yaşadığımız qəsəbənin oyuncaq mağazaları da görməmişdi...

Sonra ağlımıza möcüzəli bir "fikir" gəlir! Və biz sevimli gəlinciklərimizin yemək yeyə bilməsi üçün ağız hissələrində deşiklər açırıq. Buyurun, bu da sizə yemək yeyən gəlincik! Gəlinciyimizi yalnız su ilə bəsləyə bilməyimiz bizə kifayət edir. Rəfiqəmin maraqla bizi izləyən nənəsi 9 yaşında düzəltdiyi ağlayan gəlincik haqqında danışmağa başlayır... Tamamilə öz ixtirası olan ağlayan gəlinciyin hazırlanma qaydasını izah edir! Balqabağın təpə hissəsinə kömürlə qaş-göz, ağız-burun çəkir. Bəs saçları? Keçi yununu mürəbbə şirəsi ilə balqabağa yapışdırır. Bu da saçları... Sonra balqabağa rəngbərəng parça kəsiklərindən paltar tikir. Amma ən vacibi qalıb: bəs gəlincik necə ağlayacaq? Gəlincik-balqabağın "qarnından" bir deşik açıb, içinə mayböcəyi qoyur. Budur, ağlayan gəlincik! Bu ideya rəsmiləşsə, rəfiqəmin nənəsi bir ixtiraçı kimi tarixə düşərdi. Bütün bunları mənə qərbli alimlərin uşaqkən icad etdikləri maraqlı ixtiralar xatırlatdı. Məsələn, Amerikalı Frenk Epperson qışda bayırda qalmış 1 stəkan limonadın onu milyonçuya çevirəcəyini ağlına belə gətirməzdi. Səhər 11 yaşlı Epperson buza çevrilmiş limonadı görmüş və "meyvəli buzun" ixtiraçısı olmuşdu.

Fransız çəkməçinin 15 yaşlı oğlu Lui Brayl isə görmə əngəlli insanlar üçün xüsusi şrift yaradır və bu şrift onun şərəfinə Brayl şrifti adlandırılır. Lui atasının emalatxanasında çəkməçi bıçağına ilişib yıxılmış və 5 yaşında görmə qabiliyyətini itirmişdi. Lakin Lui öz ixtirasının köməyi ilə oxumağı öyrənmişdi. Dünya hələ də bu ixtiradan istifadə edir.

12 yaşlı Benjamin isə balıq üzgəclərini xatırladan iki qəribə əşya ilə çimərlikdə peyda olur. Ətrafdakıların iztehzalı gülüşlərinə baxmayaraq, Benjamin suya atılır və hamıdan daha sürətli üzür. Beləliklə, üzgüçülük üçün ilk lazımi əşya yaranmış olur. Franklin 15 yaşında dünyaya növbəti bir yeniliyi – yellənən kürsünü bəxş edir. Bununla da, onun doğum tarixi, 17 yanvar Uşaq İxtiraları Günü kimi tarixə düşür.

Uşaq İxtiraları Günü, dünyaya meydan oxuyan və müşkül məsələlərin böyüklərdən daha yaxşı həllini tapmağı bacaran bütün uşaqları bir araya gətirən gündür! Əminəm ki, başı çılğın fikirlərlə dolu oxucumun beynində bu suallar dolaşır: "Bəs hanı 10 ədəd yesən də, xəstələndirməyən dondurma, incitməyən iynə, yuxuda davam edən film?"... Niyə indiyədək bunları ixtira edən bir uşaq yoxdur?! O uşaq sən. Buyur, ixtira et...




Geraldine Durrant

# Pirate Gran Goes for Gold

Gran's great at sport.

"When I was a pirate I could run 100 metres quicker than you can say doubloon," says Gran, "especially with a policeman after me."

So Gran's invited her old shipmates Flint-Hearted Jack, Fingers O'Malley and Cut-throat Malone to help her train for the Olympics.

I heard her shout "Avast there me hearties" when they




were running round the garden baton-passing this afternoon but someone kept dropping it.

Gran's very loyal so she won't say who, but I notice she's been calling the bosun Butter-fingers O'Malley.

She's knitted special striped costumes for the synchronized swimming, and she and her pet crocodile have already made quite a splash at the pool.

Mind you, when she saw the headline Man-eater Terrifies Toddlers in the paper Gran was furious.

"My pet crocodile is good with children, and has never eaten anyone who didn't deserve it," said Gran.

I think her jumping looks very promising. She's been using the clothes prop to pole-vault over the washing line and land in the compost heap.

"It's one small step for a Gran," she said dusting off the cabbage leaves, "one giant leap for Grankind."

Of course pole-vaulting isn't for everyone, but Gran says if you don't mind feeling dizzy and showing your knickers it's a sport more Grans should think about.

Grandpa banned bowling after one of Gran's cannon balls blew up his greenhouse. With him in it. "Lot of fuss about nothing," Gran grumbled after she'd rescued him. "The day I can't haul an old man out of an apple tree is the day I hang up my flintlock." But even Grandpa admits she is brilliant at show-jumping – although it is the first time he's seen it done on a crocodile. There's no doubt Gran's a crack shot with her blunderbuss.

"Show me a varmint at 50 paces, and I'll show you a man with a hole through his hat," laughed Gran after she'd fired at Grandpa's scarecrow.

She's really good at fencing



too. Grandpa challenged her to a duel with a cucumber… and Gran sliced it into sandwiches with her cutlass.

And she's claiming the world record for the fastes Gran over 800 metres – although Grandpa still says it doesn't count if you have been fired out of a cannon.

I'd love to see Gran standing under a Jolly Roger listening to a sea shanty when she gets a gold medal. But Gran says the most important thing isn't winning, it's taking part and having fun. So just in case Grandpa is going to make her a special medal from all of us – for being the world's Champion Gran.




Məcidli Məhəmməd


Yusibzadə Nəzrin


Rzazadə Fidan


Ağayeva Nərmin


Kərimli Əbülfət

Azərbaycan Respublikası
Ədliyyə Nazirliyində
qeydiyyatdan keçib.

**Qeydiyyat nömrəsi:**
№ 3926 – 06.11.2014

2006-cı ilin noyabrından çıxır.

**Təşkilati dəstək:**
Azərbaycan Respublikası
Mədəniyyət və Turizm Nazirliyi

**Təsisçi:**
F.Köçərli adına Respublika
Uşaq Kitabxanası

**Baş redaktor:** Şəhla Qəmbərova
**Redaktor:** Sevinc Nuruqızı
**Korrektor:** İlahə Quliyeva
**Bədii tərtibat:** Aqil Tağıyev

Müəlliflik hüququ F.Köçərli adına Respublika Uşaq Kitabxanasına məxsusdur.

Xüsusi icazə olmadan jurnalın sürətini, elektron variantını çap etmək və yaymaq qanuna ziddir.

Jurnalımıza abunə olmaq istəyirsinizsə, yuxarıdakı ünvana müraciət edə bilərsiniz.

**Ünvan:** Bakı AZ1022 S.Vurğun  küçəsi 88

**Tel:** (+99412) 5970851,    **Faks:** (+99412) 5970879.

«Aspoliqraf LTD» nəşriyyat-poliqrafiya müəssisəsinin mətbəəsində hazır diapozitivlərdən çap olunmuşdur.

**web:** www.clb.az
**facebook:** fb.com/clb.az
**instagram:** firidunbey_kocerlikitabxanasi
**youtube:** F.Köçərli adına Respublika Uşaq Kitabxanası